## *İŞ YOLDAŞLARIMIZ*

***Ənvər Məhəmməd oğlu Abbasov – 70***

UOT 37.0



# MƏNALI MÜƏLLİM VƏ ALİM HƏYATI

Məhəmməd peyğəmbərin sözləridir: "İnsanlar arasında əxlaqı və əməli gözəl olanları fərqləndirin".

Anadan olmasının 70 illiyi tamam olan Ənvər Məhəmməd oğlu Abbasov da əxlaqı və əməli gözəl insanlardandır.

Nümunəvi ailə başçısı, gözəl dost, yoldaş və həmkardır. Müəllim və ləyaqətli insan adlarını şərəflə daşıyır. Yaxşı alimdir.

Ənvər Abbasov 1951-ci il iyunun 3-ündə - Günəşin yerə od ələdiyi bir vaxtda Yevlax rayonunun Kövər (Malbinəsi) kəndində anadan olmuşdur.

Həmin gün Günəş həmişə olduğundan daha hərarətli idi. Ənvər də Günəşin odlu nəfəsini doyunca ciyərlərinə çəkdi. Günəşin şüaları qanına, canına hopdu. O odu, o istiliyin təsiridir ki, sonralar Ənvər od kimi hərarətli, hərəkətli, çevik oldu, fərqləndi, ucaldı. Ətrafına da işıq saçdı. Təhsilimizə öz müjdələrini gətirdi, pedaqoji elmimizə öz töhfəsini verdi.

Ənvər Abbasov 1967-ci ildə orta təhsilini Nizami adına Malbinəsi kənd o məktəbində başa vurdu. Uşaqlıq illərinə "Əlvida" deyərək gənclik illərini salamladı.

Arzularının qanadlarında niyyətinin mənzilinə üz tutdu. Sənədlərini Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə vermişdi. İmtahanlardan müvəffəq qiymətlər alaraq instituta daxil oldu.

Müəllimlik peşəsinin sirlərinə dərindən yiyələnmək üçün gecəsini-gündüzünə qatıb dörd illik yuxusuz gecələr, narahat gündüzlər keçirdi. Mühazirələrdən qalmadı, seminar məşğələlərinə hazırlığı ilə seçildi.

Pedaqoji İnstitutun divarları arasında təhsil alan Ənvər məsuliyyətini yaxşı dərk edirdi. Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə, Məmmədhüseyn Təhmasib kimi müqtədir alimlərin mühazirə və seminarlarını dinləməkdən doymurdu. Yaxşı bilirdi ki, "İnsana arxadır onun kamalı". Hər zaman öyrənmək, inkişaf etmək lazımdır.

1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirən Ənvər müəllimin təyinatını Yevlax rayonuna verdilər. Vaxtilə təhsil aldığı Kövər kəndində və eyni zamanda M.F. Axundov adına 1 nömrəli şəhər məktəbində fəaliyyətə başladı. Ənvər çox yaxşı başa düşürdü ki, həmkarları arasında, valideynlər və şagirdlər arasında hörmət və nüfuz qazanmaq üçün məktəbliləri bir böyük, bir valideyn kimi sevməli, öz işinin ustası olmalı, ixtisasını dərindən bilməli,

eyni zamanda tədris etdiyi fənnin metodikasına dərindən bələd olmalı və ona yiyələnməlidir.

Ənvər müəllim işlədiyi ilk illərdə qabaqcıllığı ilə fərqlənməyə başladı. Dərs dediyi şagirdlər hər il respublika inşa yazı müsabiqələrində iştirak edir və yaxşı yerlər tuturdular. Şagirdlərinin bu uğurlarına görə o, hələ 1975-ci ildə "Qabaqcıl maarif xadimi" döş nişanına layiq görülmüşdü.

Az sonra Ənvər müəllimi Yevlax rayon və şəhər təhsil şöbələrində işə dəvət etdilər. O, iki il burada metodist vəzifəsində çalışdı, müəllimlərin yaxın məsləhətçisi oldu, eyni zamanda müəllimlik fəaliyyətindən də qalmadı..

Ənvər müəllim elmi yaradıcılığa çoxdan maraq göstərirdi. Onun ilk məqalələri ("Böyük sənətkar", "Yuxular və insanlar", "Aşıq Ələsgər novator sənətkardır") hələ 1971-1972-ci illərdə çap olunmuşdu.

"Arzular quş qanadlı olur" deyirlər. Ənvərin arzuları da qanadlanaraq uçur. Nəhayət, o, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (hazırda Azərbaycan Respublikasının Təhsil İnstitutu) Azərbaycan dilinin tədrisi metodikası şöbəsinə işə qəbul edildi. Şöbənin müdiri görkəmli alim, dilçi-metodist, pedaqoji elmlər doktoru, professor Əziz Əfəndizadə idi. Ənvər müəllim dissertanturaya qəbul olunaraq professor Ə.R. Əfəndizadənin elmi rəhbərliyi ilə tədqiqatlara başladı. "Rus məktəblərində Azərbaycan dili təlimi məzmununun linqvistik-didaktik problemləri" mövzusunda dissertasiyasını uğurla başa çatdırdı. 1988-ci ildə müdafiə edərək, pedaqoji elmlər namizədi (hazırda pedaqogika üzrə fəlsəfə doktoru) elmi dərəcəsi aldı.

Sonradan institutun elmi katibi (1990-2000), Azərbaycan dilinin tədrisi metodikası şöbəsinin müdiri (1994-cü ildən) vəzifələrində çalışdı, 2000-ci ildə institutun direktor müavini vəzifəsinə təyin olundu. Artıq 20 ildir ki, bu vəzifədə çalışır.

Ənvər Abbasov məhsuldar alimdir. Pedaqogika elminin, müasir təhsilin incəliklərinə bələddir, yaxşı metodistdir.

Ənvər müəllim təlim Azərbaycan dilində olan məktəblərin V, X və XI sinifləri, eyni zamanda təlim rus dilində olan məktəblərin V və X sinifləri, həmçinin təlim gürcü dilində olan məktəblərin V–VI sinifləri üçün dərsliklərin; ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün "Azərbaycan dili" fənn proqramının (2002); ali təhsilin bakalavriat pilləsi üçün Azərbaycan dilinin tədrisi metodikası (2003) və s. proqramların müəllifidir.

Ənvər Abbasovun müəllif və həmmüəllif olduğu dərsliklərin sayı 40-a qədərdir. Eyni zamanda o, 200-dən artıq elmi-metodik və pedaqoji əsər yazmış, həmkarları ilə birlikdə məktəbli üçün ilk "*Azərbaycanca-rusca lüğət*" (1985) kitabını hazırlamışdır.

Ə.M. Abbasov 2004-cü ildən direktor müavini vəzifəsi ilə yanaşı, Azərbaycanda ilk dəfə yaradılmış Kurikulum Mərkəzinin direktoru vəzifəsinə təyin olunmuşdur. Təqdirolunası haldır ki, onun rəhbərliyi altında Təhsil İnstitutunda ölkəmizin təhsil tarixində ilk hadisə kimi nəticəyönlü təhsil kurikulumlarının ("Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu) və ümumi təhsil məktəbləri üçün 21 fənn üzrə standart və kurikulumlar hazırlanmışdır. Bu sənədlərin hasilə gəlməsində 300-dən çox təhsil işçisi iştirak etmişdir. Həmin sənədlər 2006, 2007, 2011-ci illərdə təsdiq olunaraq məktəblərin istifadəsinə verilmişdir.

Ənvər müəllim "Kurikulumların hazırlanması və tətbiqi məsələləri", "Kurikulum islahatı: tədqiqatlar və nəticələr", "Ümumi təhsilin fənn standartları I–XI siniflər", "Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri", "Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu)", "Məktəb kurikulumları", "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V–XI siniflər)", "Kurikulum islahatı: biblioqrafik məlumat", "Standart və kurikulumlar: nəzəri və praktik məsələlər" adlı tədqiqatların aparılması və nəşrinə rəhbərlik etmişdir.

"İnnovativ pedaqoji texnologiyalar", "12 illik təhsil: bəzi pedaqoji paradiqmalar", "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi"ndə milli təhsil konturları, "Kurikulum təhsilimizə nə verir?" və s. bu kimi onlarla məqalələr; "Pedaqoji texnologiyalar" (şərikli), "Kurikulum bələdçisi" (şərikli) və s. kitab və dərs vəsaitləri pedaqogika üzrə fəlsəfə doktoru, dosent Ənvər Abbasovun təhsil və pedaqoji elm sahəsindəki uğurlarından xəbər verir.

Gənc elmi kadrların yetişməsində Ənvər Abbasov özünəməxsus rol oynayır. O, Azərbaycan Dövlət Pedaqoji Universitetdə fəaliyyət göstərən pedaqoji elmlər üzrə dissertasiya şurasının üzvüdür. İstər elmi rəhbər, istərsə də rəsmi opponent kimi üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir. Onun elmi rəhbərliyi ilə 10 nəfərdən artıq fəlsəfə doktoru yetişmişdir.

Ə.M. Abbasovun səmərəli elmi-pedaqoji fəaliyyət həmişə diqqət mərkəzində olmuşdur. Dövlətimiz onun təhsil sahəsindəki xidmətlərini qiymətləndirmişdir. Belə ki, 2005-ci ildə o, ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Tərəqqi" medalına, 2006-cı ildə isə respublikanın Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür.

Ənvər Abbasov respublika Təhsil Nazirliyinin tapşırıqlarını məsuliyyətlə yerinə yetirir, nazirliyin tədbirlərində yaxından iştirak edir.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Ənvər Məhəmməd oğlu Abbasovun təhsilimizin inkişafındakı xidmətlərindən, pedaqoji elmlərə verdiyi töhfədən çox danışmaq olar.

Dostumuz, həmkarımız Ənvər müəllim bir şəxsiyyət kimi çox dəyərli insandır. Xeyirxahdır, səmimidir, obyektivdir, kömək göstərəndir. Ailə canlıdır. İki oğul atasıdır. Hər iki oğlu ali təhsil alıb. Həyat yoldaşı Kəmalə xanım Quliyeva Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktorudur. İstəkli nəvələri var. Babaları Ənvər müəllimə xoş ovqat, tükənməz sevinc bəxş edirlər.

Ənvər Abbasov cəmiyyətdə də, ailə həyatında da uğurlar qazanıb. Özünü xoşbəxt hiss edir. Çalışdığı Azərbaycan Respublikasının Təhsil İnstitutunun kollektivi arasında dərin hörmət qazanıb. O, instituta son dərəcə bağlıdır, kollektivi, buradakı işini sevir.

Dosent Ənvər Məhəmməd oğlu Abbasov ömrünün 70-ci baharını salamlayır!

Yaşının üstünə yaş gəlsə də, gənclik həvəsi ilə yazıb-yaradır, təhsilimizin inkişafına öz köməyini göstərir. Gəlin anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 illiyi münasibəti ilə Ənvər müəllimi təbrik edək və ona: 70 yaşın mübarək olsun deyək!!!

**Akif Abbasov**,
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*respublikanın Əməkdar müəllimi*